# ANTİTERROR ŞƏHİDLƏRİ - VƏTƏNİ BÜTÖV EDƏNLƏR

***Günlərlə, aylarla üzərində işlədiyim, müxtəlif mənbələrdən, KİV məlumatlarından istifadə etdiyim və toplu halında birləşdirdiyim məlumat toplusunun növbəti məqalələrini Sizə təqdim edir, Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!***

## BABAZADƏ ƏLİ RÜSTƏM OĞLU



Şəhid kiçik leytenant Əli Rüstəm oğlu Babazadə 13 iyul 1990-cı ildə Astara rayonunun Kələdəhnə kəndində anadan olmuşdur. 1996-2007-ci illərdə Astara şəhər Rasim Camalov adına 7 saylı tam orta məktəbində orta təhsil almışdır. Orta təhsilini aldıqdan sonra 2008-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Astara rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Əli Babazadə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2009-cu ildə hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki fəaliyyət göstərmişdir. Sonra isə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət kurslarına yazılmışdır. Kursları müvəffəqiyyətlə bitirən Əli Babazadə 2012-ci ildə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu kimi yenidən orduya qayıdaraq hərbi xidmətini davam etdirmişdir.

Əli Babazadə ilk olaraq 1-5 aprel 2016-cı il tarixlərində baş verən Aprel döyüşlərində iştirak etmişdir. Cəbrayıl rayonunun Lələtəpə istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Lələtəpə zirvəsinin Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunmasında, düşmənin "Ohanyan səddi"nin darmadağın edilməsində və düşmənə layiqli dərs verilməsində böyük xidmətləri olmuşdur.

Aprel döyüşlərindən sonra Əli Babazadə baş çavuş rütbəsi ilə hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun baş çavuşu olan Əli Babazadə 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Qubadlının, Zəngilanın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, böyük qəhrəmanlıq nümunəsi göstərmişdir. Xüsusilə, alınmaz qala olan, azad edildiyi gün xalqımızın tarixinə Zəfər Günü kimi yazılan Şuşamızın azad edilməsində böyük əməyi və xidməti olmuşdur. Əli Babazadənin Vətən müharibəsində və əldə etdiyimiz şanlı Zəfərdə göstərdiyi xidmətlər diqqətdən kənarda qalmamışdır. O, cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Şuşanın azad olunmasına görə" medalı və baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir.

Həmçinin müharibəyə qədər baş çavuş rütbəsi ilə xidmət göstərən Əli Babazadəyə əvvəlcə gizir, sonra isə kiçik leytenant rütbəsi verilmişdir. O, hərbi xidmətini kiçik leytenant rütbəsində və kəşfiyyat qrupu komandiri vəzifəsində davam etdirmişdir.

Əli Babazadə 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda silahlanan, təxribatçı və separatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xankəndi istiqamətində gedən döyüşlərdə Azərbaycanımızın ərazi bütövlüyünün tam təmin olunması yolunda sinəsini güllələrə sipər etmişdir. Kiçik leytenant Əli Babazadə 19 sentyabr 2023-cü ildə Xankəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. 20 sentyabr 2023-cü ildə doğulduğu Astara rayonunun Kələdəhnə kəndində böyük izdihamla dəfn edilmişdir. Şəhidimiz ailəli idi, bir qızı və bir oğlu yadigar qaldı.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Əli Babazadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## BAĞIROV ÜLVİ HƏNİFƏ OĞLU



Şəhid leytenant Ülvi Hənifə oğlu Bağırov 22 mart 2001-ci ildə Salyan şəhərində anadan olmuşdur. 2007-2018-ci illərdə Salyan şəhər Əliağa Kürçaylı adına 7 saylı məktəb-liseydə orta təhsil almışdır. Məktəbi bitirdiyi il Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur. 2022-ci ildə ali hərbi təhsilini başa vuraraq Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin kursunda olmuşdur. 2023-cü ildə həmin kursu bitirən Ülvi həmin ilin iyun ayında leytenant rütbəsində Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, Qubadlıda yerləşən "N" saylı hərbi hissədə hərbi vəzifəsinin icrasına başlamışdır.

Ülvi Bağırov 19 sentyabr 2023-cü ildə Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı rəşadətli Azərbaycan Ordusunun başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xocavənd istiqamətində gedən döyüşlərdə sinəsini güllələrə sipər edərək böyük şücaət və igidlik nümayiş etdirmişdir. Ülvi Bağırov lokal xarakterli antiterror tədbirləri zamanı Xocavənd istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı başından ağır yaralanmış və hərbi tibb müəssisəsinə yerləşdirilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Ülvi Bağırov sağlığında, koma vəziyyətində olarkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən "Cəsur döyüşçü" medalı ilə təltif edilmişdir.

Leytenant Ülvi Bağırov antiterror əməliyyatlarında aldığı ağır yara nəticəsində 7 ay komada qalmış və həyat mücadiləsi vermişdir. Lakin 7 aprel 2024-cü ildə uzun sürən komadan ayıla bilməmiş və Şəhidlik zirvəsinə yüksəlmişdir. Qəhrəmanımızın nəşi 8 aprel 2024-cü ildə Salyan Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Şəhidimiz subay idi.

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə Ülvi Bağırov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25.06.2024-cü il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## BALABƏYLİ ELCAN VASİF OĞLU



Şəhid kapitan Elcan Vasif oğlu Balabəyli 12 mart 1992-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Orta təhsilini Naxçıvan şəhər 15 saylı tam orta məktəbdə aldıqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur. Ali hərbi təhsilini başa vuran Elcan Balabəyli Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə leytenant rütbəsində hərbi vəzifəsinin icrasına başlamışdır. Hərbi xidmət müddətində "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı və "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun baş leytenantı olan Elcan Balabəyli 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, böyük qəhrəmanlıq nümunəsi göstərmişdir. 44 günlük Vətən müharibəsinin hər günündə düşmənləri darmadağın etmiş, onların kabusuna çevrilmiş, azad olunması ilə bizə Zəfər Gününü bəxş edən gözəl Şuşamızın qurtuluşu uğrunda böyük şücaət göstərmişdir. Dövlət və ordu rəhbərliyi Elcan Balabəylinin müharibədə göstərdiyi danılmaz xidmətləri diqqətdən kənarda qoymamışdır. Elcan Balabəyli cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" medalları ilə və baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir. Həmçinin Elcan Balabəyli Vətən müharibəsindən sonra kapitan rütbəsinə yüksəlmişdir. Qəhrəman kapitanımız müharibədən sonrakı hərbi xidmətini yeni yaranan Komando Briqadasında, Zenit Raket Artilleriya Batareyasında davam etdirmişdir.

Elcan Balabəyli 19 sentyabr 2023-cü ildə Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı rəşadətli Azərbaycan Ordusu tərəfindən başlanan lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Ağdərə istiqamətində gedən döyüşlərdə böyük şücaət və igidlik nümayiş etdirmişdir. Kapitan Elcan Balabəyli 20 sentyabr 2023-cü ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhidimizin nəşi Naxçıvan Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Şəhidimiz ailəli idi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Elcan Balabəyli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "İgidliyə görə" medalı ilə təltif edilmişdir.



**SEVİNDİK NƏSİBOĞLU**
***11-ci sinif şagirdi, şair-publisist, AJB üzvü***
***(İstifadə edilmiş mənbələr: oxu.az, report.az, qafqazinfo.az, unudulmazlar.az)***